# AZƏRBAYCAN MUSİQİ SƏNƏTİNİN İNKİŞAFINDA MUSİQİ MƏKTƏBLƏRİNİN ROLU



**Ölkəmizdə uşaq və gənc istedadların yaradıcılıq imkanlarının genişləndirilməsinə xüsusi diqqət yetirilir. Onların dünya standartlarına uyğun, yüksək səviyyədə təhsil almaları üçün böyük imkanlar yaradılır, yeni məktəb binaları inşa edilir, tədris ocaqlarının maddi-texniki bazası möhkəmləndirilir.**

Azərbaycan musiqi sənətinin inkişafında musiqi məktəblərinin rolu olduqca böyükdür. Bu cəhətdən Şəmkir Şəhər Uşaq Musiqi Məktəbinin son illər bölgədə birincilər sırasında olması heç də təsadüfi deyil. Təcrübə göstərir ki, hər hansı bir kollektivin uğurlarında ona rəhbərlik edən şəxsin həlledici rolu olur. Müəllim adının şərəf və ləyaqətini uca tutan **Samirə Rüstəmova** təcrübəli pedaqoq, konsertmeyster, 35 illik zəngin iş təcrübəsi olan, yüksək idarəçilik və təşkilatçılıq bacarığına malik, peşəkar müəllim, eyni zamanda sözügedən məktəbin rəhbəridir. Yüksək intellektli pedaqoji kollektivin formalaşmasında böyük əməyi olan Samirə Rüstəmovanın yaratdığı ciddi nizam-intizam, səliqə-sahman bölgə əhalisinin diqqət mərkəzindədir.

Samirə müəllimə söhbət zamanı bildirdi:

- Hazırda ölkəmizdə mədəniyyət sahəsinə də dövlət tərəfindən xüsusi qayğı göstərilir ki, bu siyasətin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Müstəqil Azərbaycanın qurucusu və memarı, dünya səviyyəli siyasətçi ulu öndər Heydər Əliyev bütün sahələrdə olduğu kimi, milli mədəniyyətimizin inkişafı istiqamətində də misilsiz xidmətlər göstərmiş, tarixən zəngin olan mədəniyyətimizin bugünkü səviyyəyə yüksəlməsində əvəzedilməz rolu olmuşdur.

Hər il 18 sentyabrın Milli Musiqi Günü kimi qeyd olunması da ulu öndərin adı ilə bağlıdır. Bundan əlavə, cənab İlham Əliyevin rəhbərliyi ilə incəsənət və mədəniyyət sahəsinə dövlət qayğısı göstərilir. Ümumiyyətlə, Azərbaycan mədəniyyətinə və onun inkişafına xidmət edən hər bir fəaliyyət daim Prezident İlham Əliyevin diqqət mərkəzindədir.

Məktəbimizin regionda birinci və uğurlarının daim olmasının sirri savadlı müəllim kontingentinin olmasıdır. Məktəbdaxili bütün ehtiyac və problemlərin həllinə Mədəniyyət Nazirliyi, eləcə də Qazax-Tovuz Regional Mədəniyyət İdarəsi tərəfindən həssaslıqla yanaşılır. Bir sözlə, qarşıya qoyulan məqsəd və hədəflərə çatmaq üçün bütün lazımi işlər həyata keçirilir. Əminik ki, ənənələri ilə tanınan məktəbimizdə həmişə olduğu kimi, bundan sonra da daim uğurlar əldə ediləcək.

**Babək ƏLİYEV.**

Respublika.- 2025.- 31 yanvar (№21).- S.15.